## *AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI*

UOT 37.01

***Həcər Teymur qızı Hacıyeva***
*Bakı Qızlar Universiteti*

# İBTİDAİ SİNİFLƏRİN AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN YERİ

***Хеджер Теймур гызы Гаджиева***
*Бакинский Университет для Девушек*

# МЕСТО НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

***Teymur Hacar Haciyeva***
Baku Girls' University

# THE PLACE OF NATİONAL AND MORAL VALUES İN THE LESSONS OF THE AZERBAİJANİ LANGUAGE

**Xülasə:** Müasir dövrdə şagirdlərin soykökünə bağlılığı, milli ruhda tərbiyəsi mühüm məsələlərdən biridir. Xalqımızın tarixini, adət-ənənələrini mənimsətmək zəruri məsələlərdəndir. Bu baxımdan məqalədə ibtidai siniflərin Azərbaycan dili dərslərində milli-mənəvi dəyərlərin yeri müəyyənləşdirilmiş, onların rolu açıqlanmışdır.

***Açar sözlər:*** *Azərbaycan dili, şagird, təlim, milli, dəyərlər*

**Резюме:** Привязанность учеников к прошлому поколению и воспитание в них национального самосознания одно из важнейших условий современного общества. Важной задачей является также привитие уважения к истории нашего народа. В статье определено место и роль национально-нравственных ценностей при преподавании азербайджанского языка в начальных классах.

***Ключевые слова***: *Азербайджанский язык, ученик, обучение, национальный, ценности*

**Summary:** Pupils' loyaty to their anchestry and education in national spirit is one of the important issues in modern era. To adopt our people's history and tradition to pupils is a necessary issue. In this regard place of national-spiritual values has been determined, teir role has been disclosed in primary school pupils' Azerbaijan language lessons.

***Key words***:*Azerbaijan language, student, training, national, values*

Milli-mənəvi dəyərlər anlayışı özündə böyük bir məna ehtiva edir. Mənəvi dəyərlər dedikdə, əsrlər boyu xalqımızın yaratdığı əxlaqi və maddi dəyərlər sistemi nəzərdə tutulur. Hər bir xalqın varlığı, onun milli kimliyi ilk növbədə onun milli-mənəvi dəyərlərində əks olunur. Hər hansı bir etnosun milli-mənəvi dəyərlər sistemini onun əlindən almış olsaq, o zaman həmin etnosun adından savayı heç nəyi qalmaz. Bir toplumun varlığının qorunub saxlanılması üçün, hər şeydən öncə, onun varlığını özündə ehtiva edən milli-mənəvi dəyərlərini qoruyub saxlamaq lazımdır.

Dünya xalqları arasında öz qədim milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə dünya mədəni irsində özünəməxsus yer tutur. Xalqımız əsrlər boyu qoruduğu, bəzən əlindən alınmağa çalışılan adətləri bu günədək gətirib çıxara bilib, bu milli özünüdərkin formalaşmasına böyük kömək edib.

Bəşər mədəniyyəti tarixinin araşdırılması sahəsində qazanılmış təcrübələr sübut edir ki, insanların mənəviyyatı, əxlaq normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır.

Mənəvi tərbiyə insan mənəviyyatının, əxlaqının formalaşmasında mühüm rol oynayır. Məhz mənəvi tərbiyə sayəsində adi fərd kimi dünyaya gələn insan əsl mənada şəxsiyyətə çevrilir. Burada, sözsüz ki, genetik keyfiyyətlər, sosial mühit və fitri qabiliyyətlər də mühüm amil kimi özünü göstərir. Mənəvi kamillik şəxsiyyətin ən mühüm göstəricilərindəndir. Bu da, genetik əxlaqi keyfiyyətlər daxil olmaqla, süurlu və ardıcıl mənəvi tərbiyə yolu ilə əldə edilir.

Azərbaycan xalqının özünəməxsus milli-mənəvi dəyərləri vardır. Azərbaycan xalqına məxsus milli-mənəvi dəyərlərin öyrənilməsində şifahi xalq yaradıcılığı nümunələri - nağıllar, dastanlar, atalar sözləri, məsəllər, nəğmələr, nəsihətlər, bayatılar, aşıqların poetik irsi, lətifələr və s. çox qiymətli mənbədir.

Məlum olduğu kimi, mənəvi tərbiyə kiçik yaşlardan aparıldıqda onun səmərəsi daha yüksək olur. Məktəb illərində, ilk növbədə, ibtidai sinif şagirdləri mənəvi tərbiyə ilə əhatə olunmalıdır. Bədii nümunələr, xüsusən kiçikyaşlı məktəbliləri özünə daha çox cəlb edərək hiss və duyğulara təsir göstərmək gücünə malikdir. Bu sahədə aparılan işlərin ardıcıl, səmərəli görülməsi insanı mənəvi inkişafa doğru aparır.

Milli-mənəvi dəyərlərin nəsillərə ötürülməsində ümumtəhsil məktəblərində, o cümlədən, I-IV siniflər üçün tədris olunan Azərbaycan dili dərsi çox böyük rol oynayır. Azərbaycan dili dərslərində şagirdlərə vətənpərvərlik, humanizm, qonaqpərvərlik, ədalətlilik, şərəf və ləyaqət, xoş rəftar və davranış gözəlliyi, intizamlılıq, əməksevərlik, təmizlik, əməyə hörmət, islam dininə və onun dəyərlərinə hörmət etmək, mərdlik və s. kimi milli-mənəvi hisslər aşılanır. Məhz Azərbaycan dili dərsli bu baxımdan çox böyük imkanlara malikdir.

Nəsillərdən-nəsillərə ötürülən ən başlıca mənəvi dəyərlərdən biri də vətənpərvərlikdir. Hər bir insanın vətəndaş kimi yerinin, mövqeyinin, ləyaqət və dəyərinin müəyyənləşdirilməsində vətənpərvərlik tərbiyəsinin mühüm rolu vardır. Vətənpərvərlik insanları Vətən yolunda qəhrəmanlığa və fədakarlığa, yüksək vətəndaşlıq mövqeyini nümayiş etdirməyə, namusla, qeyrətlə çalışmağa ruhlandırır.

Vətənpərvərlik, həmçinin Vətənə, doğma torpağa, xalqa, adət-ənənəyə dilimizə və digər dəyərlərimizə məhəbbət deməkdir. Vətənə məhəbbət, ilk növbədə, doğma yerlərə və doğma insanlara bağlılıqdan başlayır. Vətənpərvərlik öz ailəsini, evini, el-obasını, kəndini, şəhərini, vətənini sevməkdə, onun inkişafına kömək etməkdə, mədəniyyət və incəsənətini sevməkdə, Vətənin tarixini öyrənməkdə, sərhədlərini qorumaqda, lazım gələrsə, canını vətənə qurban verməkdə, dövlətin müəyyənləşdirdiyi qaydalara süurlu əməl etməkdə, vətəndən kənarda olan zaman ona başucalığı gətirməkdə, düşmənə qarşı barışmaz olmaqda ifadə olunur.

Azərbaycan dili dərslərində şagirdlərə vətənə məhəbbət, ailəyə, valideynlərə hörmət, mərdlik və igidlik, humanizm, ədalətlilik, qonaqpərvərlik, adət-ənənələrimizə hörmət və s. kimi hisslər tərbiyə olunur. İbtidai siniflərin Azərbaycan dili dərsliklərində vətənə, onun gözəlliklərinə aid müxtəlif şeirlər, mətinlər verilmişdir. Buna II sinif Azərbaycan dili dərsliyindəki Əhməd Cəmilin "Vətən", Rafiq Yusifoğlunun "Üçrəngli Bayraq" şeirlərini, Gülşən Orucovanın "Əbədi Məşəl" hekayəsi ve s. misal göstərmək olar.

Milli-mənəvi dəyərlərimiz sırasında əməksevərlilik, ədalətlilik çox mühüm yer tutur. Şagirdlərdə bu hisslərin tərbiyə olunması üçün Azərbaycan dili dərslikləri də bir sıra atalar sözlər, məsəllər, tapmacalar və s. verilmişdir. Bunlara misal olaraq aşağıdakı atalar sözlərini nümunə göstərmək olar.

Atalar nə əkiblər, oğullar onu biçiblər.

İstəyirsən bal, çörək, al əlinə bel, kürək.

Bu atalar sözlərində əsas məqsəd şagirdlərə əməyi sevdirmək, onları zəhmətə alışdırmaqdır. Onlar düşünürlər ki, çalışmadan heç nəyə nail olmaq olmaz. I sinif dərsliyindəki "Çörək bərəkətdir", "Qənaətçillik", II sinif dərsliyindəki "Bağban və oğulları" hekayələri milli-mənəvi dəyərləri özündə birləşdirən mənbələrdəndir.

Hər bir vətəndaş öz milli-mənəvi dəyərini bilməli və həmin dəyərlərə sahib çıxmalıdır. Milli-mənəvi dəyərlər və azərbaycançılıq bizim hər birimiz üçün qiymətli və müqəddəs amillərdir. Azərbaycançılığımızı, milli ideologiyamızı, mədəniyyətimizi, mənəvi dəyərlərimizi təkcə

milli varlığımızın yox, həm də siyasi varlığımızın dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndir-məliyik.

**Məqalənin aktuallığı**. Məqalə ibtidai sinif şagirdlərinin milli-mənəvi ruhda tərbiyə olunmasında Azərbaycan dili təliminin rolu baxımından aktual əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi** şagirdlərə milli-mənəvi dəyərlərə yiyələnmənin yollarını və sistemini çatdırmaqdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən orta ixtisas məktəblərinin müəllimləri, tələbələr və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Qasımova L. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan, 2004.
2. Əliyev P., Əhmədov H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: Təhsil, 2006.
3. I sinif Azərbaycan dili dərsliyi. Bakı: Altun kitab, 2016.
4. II sinif Azərbaycan dili dərsliyi. Bakı: Altun kitab, 2017.

**E-mail**: hacarhaciyeva@mail.ru
**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* L. Qasımova, *dos.* **N. İmamverdiyeva**
**Redaksiyaya daxil olub:** 30.10.2018